# Saffat surəsi; 11-24 (Allah Quranda darvinist materialistlərlə mübahisəmizi bildirir)

**Adnan Oktarın 28 yanvar 2011 Kaçkar Tv-dəki canlı söhbətindən**

**Adnan Oktar: "İndi onlardan soruş: Yaradılış baxımından onlar mı daha çətindir, yoxsa Bizim yaratdıqlarımız mı? Doğrusu Biz onları, yapışqan bir palçıqdan yaratdıq. İndi onlardan soruş,"** Allah bizə Quranda mübahisəmizi söyləyir. Biz də gedib darvinistlərlə, materialistlərlə mübahisə edirik, bax, Allah nə deyir? "Yaradılış baxımından onlar mı daha çətindir, yoxsa Bizim yaratdıqlarımız mı?" Bax, biz dəlilləri ortaya qoyuruq. Bizim dəlillərimiz qətidir. Amma onların dəlilləri yoxdur. Gücsüz, gücü heç yoxdur. Çünki zülal deyirik, "yox deyirlər, təsadüfən olmaz. Möcüzə olar" deyir. Ara fosil (daşlaşmış qalıntı) varmı? "O da yoxdur" deyir. "Yaxşı, nə var?" deyirik, "yoxluq var" deyir, "təsadüf var" deyir. Olmaz, sən təsadüfü ilahlaşdırmısan.**"Özlərinə öyüd verildiyində, öyüd almırlar"** deyir. Gecə-gündüz öyüd veririk, izah edirik. Allah "öyüd almırlar" deyir. Haqlı olduğumuzu bildikləri halda, vicdanları qəbul etdikləri halda, ağılla da qəbul etdikləri halda qəbul etmirlər, bu bir möcüzədir. **"Bir ayə (möcüzə) gördüklərində də, lağ edib əylənirlər"** Allah deyir. Adamlara üç yüz əlli milyon fosil təqdim edirik, öz ağıllarına uyğun çox pis zarafatlarla cavab verirlər. Çox uydurma zarafatlarla. Biz sənə üç yüz əlli milyon dəlil təqdim edirik, sən bir dəlil təqdim edə bilmirsən. Hara əylənirsən sən, deyilmi? Boynunu aç, boynunla əylən. Yaxud qulağının arxasıyla əylənsin. **"De ki: "Bəli, üstəlik boyun bükmüş kəslər olaraq (dirildiləcəksiniz). Məhz o, yalnız tək çığırtıdan ibarətdir."** Yəni belə "çığırtı kimi bir səs eşidəcəksiniz" Allah deyir. "**Artıq özləri (dirildilmiş olaraq) baxıb dayanırlar.**" "Birdən ayağa qalxacaqlar, çığırtı səsinə" Allah deyir. "Bütün insanlıq diriləcək" deyir. **"Deyərlər ki: "Vay halımıza; bu, din günüdür**."" Yəni diriləcəyini heç ümid etməzkən, bir də baxır, yerdən sanki yataqdan qalxar kimi qalxır. Dümdüz bir ərazi üzərində qiyamət olduğunu və axirətdə dirildiyini anlayır. Nə deyirlər? "Vay halımıza; bu, din günüdür." "Doğruymuş" deyirlər. **"Bu, sizin yalanladığınız (mömini kafirdən, haqlını haqsızdan) ayırma günüdür. Zülm edənləri, yoldaşlarını və tapındıqlarını bir araya gətirib yığın.**" Yoldaşları da azmış olur, onları da, Allah "onların yanına gətirin" deyir. Tapındıqlarını da bir araya gətirir. Məsələn, darvinizmlə əlaqədar nə varsa, onların istifadə etdikləri vəsaitlər, materializmlə əlaqədar nə varsa, onunla əlaqədar kəslər, hamısı bir araya gətirilir. **"Allahdan başqa (tapındıqlarını); artıq onları cəhənnəmin yoluna yönəldib aparın və onları dayandırıb tutun, çünki sorğuya çəkiləcəklər."** Eyni dünyadakı kimi sorğuya çəkilirlər. Amma çox uzun, yəni illərcə sorğuya çəkilirlər. Hər mövzunu tək-tək açıqlamaq vəziyyətində qalırlar. Məsələn, hər meyvə ayrı soruşulacaq. Hər hadisə, məsələn, insanın barmaq oynaqları, gözün quruluşu, burunun quruluşu, qulağın quruluşu. Məsələn, "qulağa niyə təsadüfən dedin?" deyə soruşulacaq. "Qulağın quruluşunu sən bilirdin, deyilmi? Qulaqdakı səsi kim eşidirdi?" Təbii ki, açıqlayacaq, etiraf etmək məcburiyyətində qalacaq. Göz, çöldə işıq var mı? Yox, qapqara bir aləm var. Maddə şəffafdır. Yaxşı, sən tərtəmiz işıq və üçölçülü olaraq beyninin içində görünüşü görürsənmü? Görürsən. "O görüntünü kim görürdü?" deyildiyində, hansı gözlə görürsən deyildiyində, məcbur olub başını önünə əyəcək. Çünki ruhun gördüyü müəyyəndir. Əksini inkar edə bilməyəcəyi üçün. "İnkar etsə dili danışacaq" Allah deyir, "dərisi danışacaq" deyir, yəni yalan danışsa, inşaAllah.

https://www.harunyahya.info/az/meqaleler/saffat-suresi-11-24-allah-quranda-darvinist-materialistlerle-mubahisemizi-bildirir